Directions of entrepreneurship development in the territories liberated from occupation

Ramil Aliyev
Doctor of Philosophy in economics, Associate Professor,
leading research fellow, Institute of Economics of ANAS. Azerbaijan
E-mail: art_7_7@mail.ru
https://orcid.org/0000-0002-9128-4111

Sevda Makhmudova
Senior research fellow, Institute of Economics of ANAS. Azerbaijan
E-mail: msf_7_7@mail.ru
https://orcid.org/0000-0002-7318-2736

Abstract. The article notes that the development of the Azerbaijani economy and its successful integration into the world economy largely depends on the presence of highly developed effective entrepreneurship. As a result of successful reforms, the business sector today plays a key role in the modernization of the national economy. The article also notes that for the further development of entrepreneurship in our country, it is necessary to ensure a more efficient use of available material, financial and labor resources, natural resources, achievements of scientific and technological progress. Our liberated territories are rich in natural resources, and the implementation of specific measures for the formation and development of entrepreneurship in these territories can create opportunities and grounds for the effective use of these resources and thereby accelerate the economic development of our country. For this, the article offers appropriate proposals and recommendations for the formation and development of entrepreneurship in our liberated territories.

Key words: liberated territories, natural resources, analysis, entrepreneurship, problems, directions of development.

JEL M21,R10; **UDC** 334.012
To cite this article: Aliyev R., Makhmudova S. **(**2021). Directions of entrepreneurship development in the territories liberated from occupation. *Economic Growth and Social Welfare*, Issue II, pp. 31-40.
Article history: Received – 29.03.2021; Accepted – 22.06.2021.

İşğaldan azad edilmiş ərazilərdə sahibkarlığın inkişafı istiqamətləri

Ramil Əliyev
İqtisad üzrə fəlsəfə doktoru, dosent, aparıcı elmi işçi,
AMEA İqtisadiyyat İnstitutu. Azərbaycan
E-mail: art_7_7@mail.ru
https://orcid.org/0000-0002-9128-4111

Sevda Mahmudova
Böyük elmi işçi, AMEA İqtisadiyyat İnstitutu.Azərbaycan
E-mail: msf_7_7@mail.ru
https://orcid.org/0000-0002-7318-2736

Annotasiya. Məqalədə qeyd edilir ki, Azərbaycan iqtisadiyyatının inkişafı və dünya iqtisadiyyatına uğurlu inteqrasiyası böyük ölçüdə yüksək səviyyədə inkişaf etmiş səmərəli sahibkarlığın mövcudluğundan bilavasitə asılıdır. Uğurla həyata keçirilmiş islahatlar nəticəsində sahibkarlıq sektoru bu gün ölkəmizin milli iqtisadiyyatının modernləşdirilməsində əsas rol oynayır. Məqalədə həmçinin qeyd edilir ki, ölkəmizdə sahibkarlığın gələcək inkişafı üçün mövcud maddi, maliyyə və əmək ehtiyatlarından, təbii sərvətlərdən, elmi və texnoloji tərəqqinin nailiyyətlərindən daha səmərəli istifadə təmin edilməlidir. İşğaldan azad edilmiş ərazilərimiz təbii sərvətlərlə zəngindir və bu ərazilərdə sahibkarlığın formalaşması və inkişafı üçün məqsədyönlü tədbirlərin həyata keçirilməsi bu sərvətlərdən səmərəli istifadə edilməsinə, beləliklə də, ölkəmizin iqtisadi inkişafının sürətlənməsinə imkan və zəmin yarada bilər. Bu məqsədlə məqalədə işğaldan azad edilmiş ərazilərimizdə sahibkarlığın formalaşması və inkişafı üçün müvafiq təklif və tövsiyələr irəli sürülmşdür.

Açar sözlər: işğaldan azad edilmiş ərazilər, təbii sərvətlər, təhlil, sahibkarlıq, problemlər, inkişaf istiqamətləri.

JEL M21,R10; **UDC** 334.012
Məqaləyə istinad: Əliyev R., Mahmudova S. **(**2021). İşğaldan azad edilmiş ərazilərdə sahibkarlığın inkişafı istiqamətləri. *İqtisadi Artım və İctimai Rifah*, № 2, səh. 31-40.
Məqalə tarixçəsi: göndərilib – 29.03.2021; qəbul edilib – 22.06.2021.

Giriş / Introduction

Azərbaycan Respublikası iqtisadiyyatının gələcək inkişafı və dünya iqtisadiyyatına uğurlu inteqrasiyası böyük ölçüdə yüksək səviyyədə inkişaf etmiş səmərəli sahibkarlığın mövcudluğundan bilavasitə asılıdır. Uğurla həyata keçirilmiş islahatlar nəticəsində sahibkarlıq sektoru bu gün ölkəmizin milli iqtisadiyyatının modernləşdirilməsində əsas rol oynayır. Ona görə

də, respublikamızda iqtisadiyyatın liberallaşdırılmasına, bazar prinsiplərinin və idarəetmə mexanizmlərinin tətbiqinə, xüsusi mülkiyyətin və sahibkarlığın inkişafına xüsusi diqqət yetirilir. Ancaq, bununla yanaşı, sahibkarlığın inkişafı bir çox problemlə üzləşir. Bu problemlər əsas etibarı ilə informasiya, maliyyə, institusional, bürokratiya, korrupsiya ilə bağlıdır, lakin bütün bu problemlər həll edilə bilər. Nəzərə almaq lazımdır ki, sahibkarlıq sinfinin formalaşması bazar iqtisadiyyatına yönəlmiş hər bir cəmiyyətin sabitliyi üçün vacibdir. İnkişaf etmiş özəl sahibkarlıq hər kəsə sahibkarlıq şansının verilməsini, hamı üçün bərabər başlanğıc imkanlarının yaradılmasını nəzərdə tutur və tələb edir.

Sahibkarlıq cəmiyyətin bütün sahələri ilə sıx əlaqədədir, buna görə də onun formalaşması və inkişafı:

- iqtisadi cəhətdən əsaslandırılmalıdır;
- istehsal münasibətləri sisteminə məntiqi olaraq uyğunlaşdırılmalıdır;
- planlı iqtisadiyyat və digər təşəbbüskar olmayan idarəetmə metodları üzərində üstünlükləri nümayiş etdirilməlidir;
- maddi, maliyyə və əmək ehtiyatlarından, təbii sərvətlərdən, elmi və texnoloji tərəqqinin nailiyyətlərindən daha səmərəli istifadəni təmin etməlidir;
- əmək məhsuldarlığının artımına nail olmalıdır.

Sahibkarlığın formalaşması və inkişafı sosial sahədə uğurla ifadə olunmalıdır: əhalinin rifahının yüksəlməsinə, insanların ehtiyaclarının daha dolğun ödənilməsinə imkan və zəmin yaratmalıdır.

Qeyd etmək lazımdır ki, sahibkarlığın inkişafında mühüm cəhət onun cəmiyyətin siyasi həyatı ilə əlaqədə olmasıdır. Ona görə də, xüsusilə işğaldan azad edilmiş ərazilərdə, sahibkarlıq fəaliyyətinə dövlətdən, yerli idarəetmə orqanlarından dəstəyi təmin etmək lazımdır. Bunsuz işğal edilmiş ərazilərdə sahibkarlığın inkişafı üçün əlverişli şəraitin yaradılması mümkün olmayacaqdır.

Əsas hissə / Main Part

Ədəbiyyatların təhlili

Azərbaycanın işğaldan azad olunmuş ərazilərində infrastrukturun bərpası, əhalinin köçürülməsi, normal yaşayışın təmin olunması və iş yerlərinin yaradılması məsələlərinə həsr edilmiş "Azərbaycanın post-konflikt ərazilərinin bərpası (konseptual əsaslar)" adlı ilk fundamental əsər tanınmış iqtisadçı alimlər Nazim Müzəffərli və Eldar İsmayılov tərəfindən 2010-cu ildə nəşr edilmişdir. İ.e.d., professor, Tərbiz Əliyevin "Azərbaycanın işğaldan azad edilən ərazilərində sahibkarlığın mütərəqqi menecment formaları əsasında inkişaf istiqamətləri" (Əliyev, 2021) adlı məqaləsi də işğaldan azad edilmiş ərazilərdə sahibkarlığın formalaşması və inkişafı nöqteyi-nəzərindən təqdirə layiqdir. İqtisadçı alimlər V.Niftullayevin (2002), T.Q. Əliyevin (Əliyev 2017), Ş.T.Əliyevanın (Əliyeva 2005) əsərlərində sahibkarlığın formalaşması və inkişafı, kiçik və orta sahibkarlığın xüsusiyyətləri, Azərbaycanda sahibkarlığın inkişafının mövcud vəziyyəti və inkişafna dair təqdirə layiq fikir və mülahizələr, təkliflər irəli sürülür. Ancaq qeyd edilən əsərlərdə işğaldan azad edilmiş ərazilərdə sahibkarlığın formalaşması və inkişafına dair təklif və tövsiyələr nəzərdə tutulmamışdır. Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının Baş naziri və Rusiya Federasiyasının Prezidentinin 10 noyabr, 2020-ci il tarixli Bəyanatı (AERB 2020) işğaldan azad edilmiş ərazilərin yenidən qurulmasına və pərpasına şərait yaratsa da, Azərbaycan Respublikası Prezidentinin 29 oktyabr 2020-ci il tarixli "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında" Fərmanı (MXİT 2020) bu ərazilərdə idarəetmə orqanlarının yaradılmasını nəzərdə tutsa da, sahibkarlığın formalaşması və inkişafına dair konkret tədbirlər öz əksini tapmamışdır.

Metodologiya

Tədqiqat prosesində analitik təhlil, sistemli yanaşma metodlarından istifadə olunmuşdur. Tədqiqatın informasiya bazasını Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin və İnternet şəbəkəsinin məlumatları təşkil edir.

Nəticələr və müzakirə

İşğaldan azad edilmiş ərazilərdə sahibkarlığın inkişafı üçün potensial imkanlar

XX əsrin 90-cı illərində SSRİ-də mərkəzi hakimiyyətin zəifləməsi milli münasibətlərin kəskinləşməsinə, nəticədə keçmiş Sovet respublikalarının əksəriyyətində mərkəzdən qaçma meyllərinin güclənməsinə səbəb olmuşdu. Bəzi respublikalarda bu proseslər qansız baş versə də, təəssüf ki, başda SSRİ-nin birinci və sonuncu prezidenti M.Qorbaçovun birbaşa dəstəyi ilə Ermənistanın Azərbaycana qarşı ərazi iddialarını irəli sürməsi və keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistana birləşdirilməsi haqqında qərar qəbul etməsi, bu iki respublika arasında müharibəyə səbəb olmuşdu. Ermənistan istəklərinə nail olmaq üçün, Dağlıq Qarabağda yaşayan ermənilərlə birlikdə, Rusiyanın, İranın və xristian həmrəyliyindən çıxış edən bəzi Qərb dövlətlərinin birbaşa dəstəyi ilə, silahsız Azərbaycan əhalisinə qarşı, uşaq, qadın, qoca bilmədən silahlı mübarizəyə qalxmış, olara qarşı misli görünməmiş vəhşiliklər, cinayətlər törətməklə, minlərlə vətəndaşımızı qətlə yetirmiş, dogma torpaqlarından qovmuş, onları öz vətənlərində məcburi köçkün həyatı yaşamağa vadar etmişdir. Ermənistan bununla kifayətlənməmiş, etnik zəmində cinayət törədərək Ermənistanda yaşayan 250 mindən çox azərbaycanlını zorla deportasiya etmişdir.

Keçən əsrin 90-cı illərində Azərbaycanın formalaşmış milli ordusunun olmamasından, ölkəmizdə sosial-siyasi sabitliyin pozulmasından, hakimiyyət uğrunda gedən mübarizənin doğurduğu çaşqınlıqdan istifadə edən erməni birləşmələri, nəinki Dağlıq Qarabağı, eləcə də, onun hüdudlarından kənarda olan Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan, Kəlbəcər, Ağdam, Laçın rayonlarını da işğal etməyə nail olmuş, nəticədə bir milyona yaxın azərbaycanlılar qaçqın və köçkün vəziyyətinə düşmüşdü. Yenə də xarici havadarlarının dəstəyi ilə Ermənistan işğal etdikləri Azərbaycan ərazilərini 30 ilə yaxın öz əlində saxlamağa "nail olmuşdu". Bütün bu müddət ərzində Azərbaycan hümanizm nümayiş etdirərək işğal edilmiş ərazilərinin, beynəlxalq hüquq normalarına uyğun olaraq, sülh yolu ilə azad edilməsinə üstünlük vermişdi.

Ancaq bu istiqamətdə çoxillik təşəbbüslərinin heç bir nəticə vermədiyini görən Azərbaycan, yenə də beynəlxalq hüquq normalarına, BMT-nın Nizamnaməsinə, ATƏT-in prinsiplərinə tam uyğun olaraq, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin əmri ilə, 27 sentyabr 2020-ci ildə torpaqlarının işğaldan azad edilməsi üçün hərb yolunu seçmək qərarına gəldi. Azərbaycan xalqının, dövlətinin, bütün siyasi qüvvələrin tam və yekdil dəstəyinə arxalanan qəhrəman Azərbaycan əsgər və zabitləri 44 gün ərzində torpaqlarımızı yağı düşməndən azad etməyə, dövlətimizin ərazi bütövlüyünü təmin etməyə nail oldu! İndi dövlətimizin qarşısında duran ən vacib problemlərdən biri erməni vandallarının xarabaya çevirdiyi ərazilərimizi bərpa etməkdən, bu ərazilərdən köçkün düşmüş vətəndaşlarımızı dogma yurdlarına qaytarmaqdan ibarətdir. Təqdirəlayiq haldır ki, artıq bu işlərə start verilmiş, bu məqsədlə 2021-ci ildə ilkin olaraq 2,2 milyartd manat vəsait ayrılmışdır. Qəti əminik ki, Azərbaycan dövləti qısa müddət ərzində erməni vandallarının xarabalığa çevirdiyi ərazilərimizin bərpa edilməsinə, köçkünlərin doğma yurdlarına qayıdışına nail olacaqdır. Ancaq, təbiidir ki, köçkünlərin işğaldan azad edilmiş doğma yurdlarına qaytarılması ilə iş bitmir. Ən əsas problemlərdən biri bu ərazilərə köçürülmüş əmək qabiliyyətli əhalinin məşğulluğunun təmin edilməsidir. Əks təqdirdə onlar iş axtarmaq məqsədi ilə doğma yurdlarını tərk etmək məcburiyyəti ilə üzləşə bilərlər. Ona görə də, hesab edirik ki, köçkünlərin işğaldan azad edilmiş ərazilərə köçürülməsi, həmin ərazilərdə müvafiq iş yerlərinin yaradılması ilə paralel aparılmalıdır. Fikrimizcə, bu problemin müvəffəqiyyətlə həll edilməsi üçün qeyd edilən

ərazilərdə sahibkarlığın formalaşmasına və inkişafına nail olunmalı, müvafiq istehsal və ya xidmət sahələri yaradılarkən bu ərazilərdə olan təbii sərvətlərin mövcudluğu və təbii şərait nəzərə alınmalıdır.

Araşdırmalar göstərir ki, işğaldan azad edilmiş ərazilərimiz sahibkarlığın formalaşması və inkişafı üçün təbii sərvətlərlə zəngindir. Belə ki, Füzuli rayonunun ərazisində:

- ehtiyatları 58858 min m^3 -ə bərabər və mişar daşı istehsalında istifadə edilən iki (Dövlətyarlı, Dilağar) əhəngdaşı yatağı;
- ehtiyatları 13053 min m^3 olan Quruçay qum-çınqıl qarışığı yataqları;
- kərpic-kirəmit istehsalında istifadə edilən və 11211 min m^3 ehtiyatlara malik olan Kürdmahmudlu gil yatağı mövcuddur (FTE, 2011).

Cəbrayıl rayonu da təbii sərvətlərlə zəngindir. Bu rayonda:

- mişar daşı istehsalına yararlı və ehtiyatları 2937 min m^3 olan Tulus tuf; ümumi ehtiyatları 5434 min m^3-ə bərabər Çaxmaqçay, Soltanlı tikinti qumu;
- ehtiyatları 296 min m^3 olan və kərpic istehsalında istifadə edilən Qaracallı gil;
- ümumi ehtiyatları 6644 min tona bərabər, sement istehsalında istifadə edilən, Göyərçin-Veysəlli vulkan külü;
- ümumi ehtiyatları 1325 min ton təşkil edən Minbaşlı gəc;
- ümumi ehtiyatları 5226 min ton təşkil edən əhəng istehsalında istifadə edilən Ağtəpə əhəngdaşı;
- cəmi ehtiyatları 4130 min m^3 olan Cəfərabad qum-çınqıl qarışığı;
- ehtiyatları 504 ton olan Sahverdi yəşəm və ümumi ehtiyatları 1348 ton olan Çaxmaqqaya xalsedon yataqları mövcuddur (CTE, 2010).

Zəngilan rayonunun ərazisi zəngin təbii ehtiyatlara malikdir. Bu rayonda:

- ehtiyatları 6,5 ton qızıl və 3 min ton mis olan “Vecnəli” qızıl yatağı;
- ümumi ehtiyatları 6.618 min m^3 -ə bərabər olan üzlük daşı istehsalına yararlı “Oxçuçay” mərmərləşmiş əhəngdaşı yatağı;
- hesablanmış ehtiyatları 129 min ton olan “Daşbaşı-Esgurum” əhəngdaşı yatağı;
- ehtiyatları 28.943 min m^3 olan Bartaz-I və Bartaz-II porfirit yataqları;
- ümumi ehtiyatları 1.102 min m3 -ə bərabər və kərpic istehsalında istifadə edilən gil və ehtiyatları 17.367 min m^3 olan qum-çınqıl yataqları vardır (ZTS, 2020).

Qubadlı rayonunda:

- ümumi ehtiyatları 6 mln 247 min kub metr olan mişar daşı üçün yararlı Hacılı tuf yatağı;
- cəmi ehtiyatları 990 min kub metrə bərabər tikintiyə yararlı, Xanlıq kəndində yerləşən gil yatağı;
-ümumi ehtiyatları 1,1 min ton təşkil edən Eyvazlı bəzək-əlvan (əqiq) daşı yatağı mövcuddur. Əqiq daşı yatağı dünyada nadir yataqlardan hesab olunur. Əqiq daşından xüsusilə kimya sənayesində və bəzək sahəsində istifadə edilir(QTS, 2020).

Təbii sərvətləri ilə zəngin olan Ağdam rayonunda:

- ehtiyatları 64.863 min m^3olan mişar daşı;
- 140.464 min tona bərabər Çobandağ əhəngdaşı;
- ehtiyatları 44.708 min ton olan Boyəhmədli və 25.197 min ton olan Şorbulaq gil yataqları mövcuddur (ATS, 2013).

Kəlbəcər rayonu qiymətli təbii sərvətlərlə zəngin olan təbiətə malikdir. Bu rayonda:

- ehtiyatları 130 ton qızıla;
- 190,33 ton gümüşə;
- 45,82 ton tellura;
- 248,89 ton selenə;
- 939 ton civəyə;
- 10.927 min kub metr mişar daşına;

- 1.312 min kub metr gilə;
- 2.540 min kub metr qum-çınqıla;
- 5.189,6 ton əlvan daşa;
- 12.428 min kub metr tikinti daşına;
- 1 901 min kub metr üzlük daşına;
- 4 473 min kub metr sement xammalına malik olan zəngin yataqlar vardır (KTS, 2020).

Laçın rayonda:

- ehtiyatları 1124 tona bərabər civə (Narzanlı, Çilgəzçay, Sarıbulaq);
- ehtiyatları 4457 min tona çatan və əhəng istehsalında istifadə edilən Laçın əhəngdaşı;
- ehtiyatları 2533 min m^3 -ə bərabər və üzlük daşı istehsalında istifadə edilən Qoçaz mərmərləşmiş əhəngdaşı;
- cəmi ehtiyatları 5125 min m^3 olan və mişar daşı istehsalına yararlı tuf (Ağoğlan, Əhmədli);
- ümumi ehtiyatları 998 min m^3 olan və kərpic-kirəmid istehsalında istifadə edilən Novruzlu gil;
- ehtiyatları 2144 min m^3 olan Quşçu pemza;
- ehtiyatları 15794 min m^3 olan Yuxarı Həkəriçay qum-çınqıl qarışığı;
- hesablanmış ehtiyatları 10 ton əqiq və 0,9 ton jad olan 2 əlvan bəzək daşı;
- ehtiyatları 10449 min tona bərabər 3 vulkan külü yataqları mövcuddur (LTS, 2011).

Xocavənd rayonu da zəngin təbii ehtiyatlara malikdir. Bu rayonda:

- ehtiyatları 2034 min kub metrə bərabər və üzlük daşı istehsalına yararlı Ediş qabbro;
- ümumi ehtiyatları 989 min ton olan və əhəng istehsalına yararlı Xocavənd əhəngdaşı yataqları vardır (XTS 2012).

Şuşa rayonunda:

- ehtiyatları 1143 min m^3 olan Şuşa üzlük daşı yatağı;
- ümumi ehtiyatları 397 min m^3 olan və kərpic-kirəmid istehsalına yararlı Keçəldağ gil yatağı mövcuddur (ŞTS, 2010).

Xocalı rayonunda:

- ümumi ehtiyatları 32 min m^3 və 2039 min m^3 olan Zərinbağ və Ağçay üzlük daşı yataqları;
- hesablanmış ehtiyatları 12434 min tona bərabər, əhəng istehsalında istifadə edilən Şuşa əhəngdaşı yatağı;
- ümumi ehtiyatları 962 min m^3-ə bərabər və kərpic istehsalına yararlı Xocalı gil yatağı;
- 7280 min m^3 ehtiyata malik olan Xankəndi (Əskəran qrupu) qum-çınqıl qarışığı yatağı vardır (XTS, 2019).

Göründüyü kimi, işğaldan azad edilmiş rayonlarımızda həm təbii sərvətlərin hasilatı, həm də onların emalı məqsədi ilə müxtəlif istiqamətli sahibkarlıq sturukturlarının yaradılması üçün kifayət qədər potensial imkanlar vardır. Gözəl, səfalı və zəngin təbiətə, çox saylı təbii və qədim abidələrə (erməni vandalları onları məhv etsələr də tezliklə bərpa ediləcəkdir) malik olan bu ərazilər həm də, turizmin inkişafı üçün əhəmiyyətli imkanlara malikdir. Ancaq yaradılacaq sahibkarlıq sturkturlarında kimlərin məşğul olacağı da əsas məsələlərdən biridir. Yaxşı olardı ki, bu sahibkarlıq strukturlarına öz doğma yurdlarına qayıtmış yerli sakinlərin cəlb edilməsinə üstünlük verilsin. Bu yerli sakinlərin məşğulluq probleminin həll edilməsinə və onların azad edilmiş ərazilərdə daimi məskunlaşmasına imkan yaradardı.

Cədvəl 1-də öz dogma yurdlarına qayıtmağı səbirsizliklə gözləyən vətəndaşlarımızın sayı göstərilmişdir.

Cədvəl 1. İşğaldan azad edilmiş rayonların əhalisinin sayı (min nəfər)

İnzibati rayonlar	2020-ci ilin əvvəlinə
Füzuli	133,8
Cəbrayıl	81,7
Zəngilan	45,2
Qubadlı	41,6
Kəlbəcər	94,1
Ağdam	204,0
Laçın	78,6
Xocavənd	44,1
Şuşa	34,7
Xocalı	28,8
Xankəndi şəhəri	55,9
Cəmi	842,5

Mənbə: ADG (2020)əsasında müəlliflər tərəfindən tərtib edilmişdir.

Cədvəl 1-də 2020-ci ilin əvvəlinə qeyd edilən rayonlarda qeydiyyatda olan əhalinin sayı göstərilmişdir. Təbiidir ki, 2021-ci ilin əvvəlinə onların sayı daha çoxdur. Bunların üzərinə Naxçıvanın Kərki kəndinin və Qazax rayonunun hələ də işğal altında olan və yaxınlarda azad ediləcək 7 kəndinin əhalisi də əlavə edilərsə, doğma yurdlarına qayıtmalı olan Azərbaycan əhalisinin sayının bir milyona yaxın olduğunu söyləmək olar. Göründüyü kimi, işğal edilmiş ərazilərdə yaradılacaq sahibkarlıq strukturlarında işləmək üçün bu ərazilərə qaytarılaçaq köçkünlərin sırasında kifayət qədər potensial əmək ehtiyatları mövcuddur. Ancaq yaradılması nəzərdə tutulan sahibkarlıq strukturlarında işləmək üçün yerli sakinlər arasından kimlərin cəlb edilməsi məsələsinə bu strukturlar yaradılmamışdan əvvəl və ya paralel şəkildə baxmaq lazımdır. Bunun üçün:

- ilk növbədə müvafiq rayonda hansı hasilat, emal və ya xidmət strukturlarının ilkin olaraq yaradılmasının məqsədəuyğunluğu müəyyən edilməlidir;
- həmin sahibkarlıq strukturlarında işləmək üçün tələb olunan təhsil, peşə-ixtisas, iş təcrübəsinə olan tələblər müəyyən edilməlidir;
- həmin rayona qayıdılması nəzərdə tutulan əhali arasında əmək qabiliyyətli əhalinin sayı, cins-yaş, peşə-ixtisas, təhsil tərkibi araşdırılmalıdır;
- onların sırasında müvafiq sahibkarlıq strukturlarında işləmək üçün üyğun təhsilə, ixtisasa, peşəyə, təcrübəyə malik olanların sayı və cins-yaş tərkibi müəyyən edilməlidir;
- əgər onların sayı kifayət edəcək səviyyədə deyilsə, yerli sakinlər arasından çatışmayan müvafiq peşələr və ixtisaslar üzrə kadrların hazırlanması təşkil edilməlidir.

Fikrimizcə, yalnız qeyd edilən ardıcıl yanaşma işğaldan azad edilmiş ərazilərdə sahibkarlığın formalaşmasına və inkişafına, məcburi köçkünlərin bu ərazilərə könüllü qayıdışına və orada daimi məskunlaşmalarına imkan və şərait yarada bilər. Əks halda doğma torpaqlara qayıtmaq arzusu nə qədər güclü olsa da, bir müddət sonra, işsizlik səbəbindən, insanlar bu torpaqları tərk etməli olarlar.

Hesab edirik ki, indiki şəraitdə işğaldan azad edilmiş ərazilərin bərpası, bu ərazilərinin iqtisadi cəhətdən inkişafı ilə yanaşı, köçürüləcək əmək qabiliyyətli əhalinin məşğulluğun təmin edilməsi də, dövlətin həll etməli olduğu sosial-iqtisadi problemlər sırasına daxil edilməlidir. Fikrimizcə, bütün bunlara qeyd edilən ərazilərdə sahibkarlığın inkişafı yolu ilə nail olmaq mümkündür.

İşğaldan azad edilmiş ərazilərdə sahibkarlığın inkişafının prioritet istiqamətləri

Yuxarıda qeyd edilənlərdən göründüyü kimi, işğaldan azad edilmiş ərazilərdə həm istehsal, həm də xidmət sahələrində fəaliyyət göstərə biləcək sahibkarlıq strukturlarının yaradılması və inkişafı üçün kifayət qədər potensial imkanlar vardır. Ancaq, fikrimizcə, həm istehsal, həm də xidmət sahələrində fəaliyyət göstərəcək sahibkarlıq strukturlarının yaradılması üçün, mövcud təbii ehtiyatlar, imkanlar və yerli xüsusiyyətlər nəzərə alınmaqla, ilk növbədə prioritet sahələr müəyyənləşdirilməlidir. Hesab edirk ki:

• Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Ağdam, Kəlbəcər, Laçın, Xocavənd, Xocalı və Şuşa rayonlarında tikinti materialları istehsalının;

• Kəlbəcər və Zəngilan rayonlarında qızıl istehsalının;

• Zəngilan rayonunda mis istehsalının;

• Kəlbəcər və Laçın rayonlarında gümüş və civə istehsalının prioritet sahələr kimi müəyyən edilməsi məqsədəuyğun olardı.

Qeyd edilənlərlə yanaşı:

- ölkəmizdə informasiya texnologiyaları məhsullarına olan tələbatın artması perspektivləri nəzərə alınaraq, Xankəndi, Şuşa və Ağdam şəhərlərində informasiya əmtəələri istehsal edən sahibkarlıq strukturlarının yaradılması, belə strukturların yaradılmasına qabaqcıl xarici firmaların cəlb edilməsi, onların iştirakı ilə müştərək müəssisələrin yaradılması;

-yerli xüsusiyyətlər, xammal bazası və təşəkkül tapmış ənənələr nəzərə alınmaqla işğaldan azad edilmiş rayonların mərkəzlərində, xarici firmaların iştirakı ilə, qida məhsulları və digər xalq istehlakı malları istehsal edən müştərək sahibkarlıq strukturlarının yaradılması;

- Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Ağdam, Kəlbəcər, Laçın, Xocavənd, Xocalı və Şuşa şəhərlərində kənd təsərrüfatı məhsullarını emal edən yeni, müasir müəssisələrin yaradılması;

- respublikamızın müdafiə sənayesi məhsullarına (hərbi sursata) olan tələbatının əsas hissəsinin yerli istehsal hesabına ödənilməsinə nail olmaq üçün Ağdam və Şuşa şəhərlərində yeni müəssisələrin yaradılması;

- kənd təsərrüfatı məhsullarının istehsalı üçün iri fermer təsərrüfatlarının yaradılması;

- işğaldan azad edilmiş bütün rayonların füsünkar təbiəti, tarixi abidələrlə zənginliyi (ümidvarıq ki, erməni vandalları tərəfindən dağıdılmış tarixi abidələrimiz tezllklə bərpa ediləcəkdir) nəzərə alınaraq turizmin inkişafı üçün müvafiq infrastrukturların yaradılması da məqsədəuyğun olardı.

Fikrimizcə, işğaldan azad edilmiş ərazilərdə əsas diqqət kiçik və orta sahibkarlıq strukturlarının yaradılmasına yönəldilməlidir. Ona görə ki:

- birincisi, bu sahibkarlıq strukturları bazarın yeni tələblərinə daha tez uyğunlaşma qabiliyyətinə və nəticədə, sabit rəqabət qabiliyyətinə malikdirlər;

- ikincisi, həm orta, həm də kiçik sahibkarlıq strukturları əmək qabiliyyətli əhalinin, xüsusilə də regionlarda, məşğulluğunun təmin edilməsində xüsusi rol oynayırlar;

- üçüncüsü, rayonlarda daha geniş yayılan kiçik və orta sahibkarlıq strukturları özlərinin çevikliyi sayəsində, iri sahibkarlıq strukturlarından fərqli olaraq, qabaqcıl texnologiyaları və yenilikləri daha tez tətbiq etmək qabiliyyətinə malikdirlər.

Bunlarla yanaşı, kiçik və orta sahibkarlıq strukturları sahibkarlıq fəaliyyətinin kütləvi forması olmaqla, işğaldan azad edilmiş rayonlarda gözlənilən aşağıdakı kəskin sosial problemlərin həll edilməsində xüsusi rol oynaya bilər:

- rayonlarda çox sayda insanın aktiv iqtisadi fəaliyyətə cəlb edilməsi və nəticədə işsizliyin səviyyəsinin azaldılması;

- rayonlar üçün mühüm əhəmiyyət daşıyan rəqabət mühitinin genişləndirilməsi və inhisarlaşmanın zəifləməsi;

- rayonlarda daha geniş yayılmış kiçik sahibkarlıq strukturlarının fəaliyyətinin az tapılan məhsul və xidmətlərin istehsalına və müvafiq bazar boşluqlarının doldurulmasına istiqamətləndirilməsi;

-cəmiyyətdə iqtisadi və sosial sabitliyin qarantı kimi əhəmiyyətli rol oynayan kiçik mülkiyyətçi təbəqənin və orta sinifin formalaşması üçün şəraitin yaradılması.

Məlumdur ki, maliyyə mənbələrinə çıxış imkanı sahibkarlığın formalaşmasına və inkişafına əhəmiyyətli dərəcədə təsir edən amillərdən biridir. Erməni vandallarının təmamilə dağıtdığı ərazilərin bərpası, bu ərazilərdə sahibkarlıq fəaliyyətinin səmərəli təşkili və inkişaf etdirilməsi üçün küllü miqdarda maliyyə vəsaitinə ehtiyac vardır. Azərbaycanın bank sisteminin indiki vəziyyəti, bu sahədə inhisarçılıq, yüksək kredit faizləri və girov təminatına olan yüksək tələblər sahibkarların əlverişli şərtlərlə kreditlərə çıxışına imkan vermir. Fikrimizcə, işğaldan azad edilmiş ərazilərdə sahibkarlığın təşkilinin maliyyə təminatını yaxşılaşdırmaq məqsədi ilə iri xarici bankların ölkəmizə dəvət edilməsi məqsədəuyğun olardı. Bu ölkəmizin bank sistemində mövcud inhisarçılığı zəiflətməklə yanaşı, kredit faizlərinin xeyli aşağı salınmasına, sahibkarların bank kreditlərinə çıxışının asanlaşdırılmasına imkan verərdi.

Nəticə / Conclusion

Azərbaycanın işğaldan azad edilmiş əraziləri təbii sərvətlərlə zəngindir. Bu sərvətlərdən səmərəli istifadə edilməsi ölkəmizin iqtisadiyyatının daha sürətlə inkişaf etdirlməsinə imkan yarada bilər. Bu imkandan səmərəli istifadə edilməsinin əsas yollarından biri qeyd edilən ərazilərdə sahibkarlıq fəaliyyətinin təşkili və inkişaf etdirilməsidir. Fikrimizcə, bu məqalədə irəli sürülən təklif və tövsiyələrin həyata keçirilməsi qeyd edilən məqsədə nail olunmasına imkan və zəmin yarada bilər. Hesab edirk ki, işğaldan azad edilmiş ərazilərdə sahibkarlıq fəaliyyətinin daha səmərəli təşkil edilməsi üçün:

- ilk növbədə konkret ərazidə hansı istehsal və xidmət müəssisələrinin yaradılmasının məqsədəuyğunluğu, sahibkarlıq fəaliyyətinin prioritet sahələri müəyyənləşdirilməlidir;
- əsas diqqət kiçik və orta sahibkarlıq strukturlarının yaradılmasına yönəldilməlidir;
- yaradılacaq sahibkarlıq strukturlarının bank kreditlərinə asan çıxışının təmin edilməsi üçün müvafiq tədbirlər görülməli, bu məqsədlə xarici iri banklar ölkəmizə dəvət edilməlidir;
- yaradılacaq yeni sahibkarlıq strukturlarında işləmək üçün bu ərazilərə qayıdan yerli sakinlərə üstünlük verilməlidir.

İstifadə edilmiş ədəbiyyat / References

ADG (2020). Azərbaycanın demoqrafik göstəriciləri. Statistik məcmuə, Bakı, DSK, 2020. 532 səh.

AERB (2020). Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin 10 noyabr, 2020-ci il tarixli Bəyanatı. Bakı, "Xalq" qəzeti, 11 noyabr.

ATS (2013). https://azertag.az/xeber/Agdamin_tebii_servetleri_ermeniler_terefinden_talan_edilir-26562. İstinad tarixi: aprel, 2021.

CTE (2010).https://azertag.az/xeber/cabrayıl_rayonunun_tabıı_sarvatları_ ermanı_ısgalchıları_tarafından_dagıdılır-490547. istinad tarixi: aprel, 2021.

Əliyev T.Q. (2017). Sahibkarlıq fəaliyyətinin hüquqi, iqtisadi və sosial şərtləri. "Kooperasiya" Elmi-praktiki jurnal, 1 (44), səh.31-36.

Əliyev T. (2021). Azərbaycanın işğaldan azad edilən ərazilərində sahibkarlığın mütərəqqi menecment formaları əsasında inkişaf istiqamətləri. İqtisadi Artım və İctimai Rifah, № 1, səh. 10-19. İstinad tarixi: aprel, 2021

Əliyev R.T., Mahmudova S.F. (2020). Azərbaycanda kiçik sahibkarlığın inkişafı. Monoqrafiya. Bakı, "AVROPA" nəşriyyatı, 72 səh.

Əliyeva Ş.T. (2005). Kiçik və orta biznesin inkişafı və məşğulluq problemləri. Monoqrafiya.Bakı, EİM, 288 səh.

FTE (2011). http://eco.gov.az/az/nazirlik/xeber?newsID=5426.İstinad tarixi: aprel,2021.

XTS (2019). http://deyerler.org/23921-dedal-altinda-olan-xocali-rayonundaki-tzhbdd. html. İstinad tarixi: aprel,2021.
XTS (2012). http://eco.gov.az/az/nazirlik/xeber?newsID=6016. İstinad tarixi: aprel,2021.
KTS (2020).https://finance-group.az/k-lb-c-r-rayonu-t-bii-s-rv-tl-ri/.İstinad tarixi: aprel,2021.
QTS (2020). https://reyting.az/iqtisadiyyat/43103-qubadl-rayonu-da-bu-zonada-tbii-yataqlar-il-frqlnir-thlil.html. İstinad tarixi: aprel,2021.
LTS (2011). https://azertag.az/xeber/Lachin_rayonunun_tebii_servetleri_19_ildir_ki_ ermeniler_ terefinden_talanir-523179. İstinad tarixi: aprel,2021.
MXİT (2020). "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 29 oktyabr 2020-ci il tarixli Fərmanı. Bakı, "Respublika" qəzeti, 30 oktyabr.
Niftullayev V. (2002).Sahibkarlığı əsasları. Bakı, "Zaman nəşriyyatı", 618 səh.
ŞTS (2010). https://azertag.az/xeber/18_ıldır_kı_susanın_tabıı_sarvatları_ermanılar_tarafından_ dagıdılır-477792. İstinad tarixi: aprel,2021.
ZTS (2020) https://aqreqator.az/az/iqtisadiyyat/1066365. İstinad tarixi: aprel, 2021.

Направления развития предпринимательства на освобожденных от оккупации территориях

Рамиль Алиев
доктор философии по экономике, доцент, ведущий научный сотрудник,
Институт Экономики НАНА. Азербайджан
Email: art_7_7@mail.ru

Севда Махмудова
старший научный сотрудник,
Институт Экономики НАНА. Азербайджан
E-mail: msf_7_7@mail.ru

Резюме. В статье отмечается, что развитие экономики Азербайджана и ее успешная интеграция в мировую экономику во многом зависит от наличия высокоразвитого эффективного предпринимательства. В результате успешных реформ сектор предпринимательства сегодня играет ключевую роль в модернизации национальной экономики. В статье также отмечается, что для дальнейшего развития предпринимательства в нашей стране необходимо обеспечить более эффективное использование имеющихся материальных, финансовых и трудовых ресурсов, природных ресурсов, достижений научно-технического прогресса. Наши освобожденные территории богаты природными ресурсами, и реализация конкретных мер по формированию и развитию предпринимательства на этих территориях может создать возможности и почву для эффективного использования этих ресурсов и тем самым ускорить экономическое развитие нашей страны. Для этого в статье предлагаются соответствующие предложения и рекомендации по формированию и развитию предпринимательства на наших освобожденных территориях.
Ключевые слова: освобожденные территории, природные ресурсы, анализ, предпринимательство, проблемы, направления развития.